# Möhtəşəmliyi ilə tarixə düşən musiqi bayramı




## Sonuncu kamera konserti

Avqustun 3-də “Dörd əl axşamı” adlı sonuncu kamera konsertində pianoçular - Azərbaycan Dövlət Filarmoniyasının direktoru pianoçu Murad Adıgözəlzadə, Qəbələ Beynəlxalq Piano Müsabiqəsinin münsiflər heyətinin sədri, Rusiyalı pianoçu Oksana Yablonskaya, ABŞ-ın Duksburi Musiqi Festivalının bədii rəhbəri Stefan Deitz, İtaliyanın “L. Perosi” Beynəlxalq Musiqi Akademiyasının professoru, violaçı Anna Serova çıxış ediblər.

Festival iştirakçıları dünyanın tanınmış musiqiçilərinin canlı ifasında Avropa bəstəkarları R. Şubert, İ. Brams, Q. Fore və C. Gerşvinin ölməz əsərlərini dinləyiblər.

## Möhtəşəmliyi ilə yadda qalan IX Qəbələ Beynəlxalq Musiqi Festivalının bağlanış mərasimi

***Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin, “Gilan Holding”in dəstəyi ilə keçirilən IX Qəbələ Beynəlxalq Musiqi Festivalı ötən bir həftə ərzində ölkəmizdə əsl musiqi bayramına çevrilməklə dünyanın diqqətini Azərbaycana yönəltdi. Ölkəmizin mədəni həyatında ən önəmli hadisələrdən biri olan bu festival zəngin proqramı və dəyərli qonaqları ilə yadda qaldı. Avropanın və dünyanın ən məşhur musiqiçilərinin ifaları Qəbələnin ecazkar təbiəti ilə ahəng təşkil edirdi.***

Bu nəhəng musiqi bayramını izləmək üçün həm ölkəmizin bölgələrindən, həm də xaricdən insanlar Qəbələyə axışıblar. Klassik musiqi əsərlərini mükəmməl ifada canlı dinləmək imkanı əldə edən tamaşaçılar artıq indidən növbəti festivalı səbirsizliklə gözlədiklərini dilə gətirirlər. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən bu festival onu da təsdiq etdi ki, Azərbaycan Qərb ilə Şərqin mədəni dəyərlərini eyni dərəcədə, həm də çox mükəmməl formada təqdim etməyi bacaran nadir məkandır.

IX Qəbələ Beynəlxalq Musiqi Festivalının bağlanış mərasimi və yekun konserti də anşlaqla keçib.

Milli Məclis deputatlarının, xarici ölkələrin ölkəmizdəki səfirlərinin, dövlət və hökumət nümayəndələrinin iştirak etdiyi festivalın bağlanış mərasimində Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri, “Şöhrət” ordenli Fəttah Heydərov çıxış edərək bu festivalın ölkəmizin həyatında əlamətdar hadisə olduğunu vurğulayıb. Fəttah Heydərov festivalın təşkilinə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib, festivalın dünyada böyük əks-səda doğurduğunu qeyd edib. Millət vəkili onu da bildirib ki, bütün bunlar ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəmizin inkişafı istiqamətində apardığı ardıcıl siyasət nəticəsində mümkün olub. Fəttah Heydərov 10-a yaxın ölkədən görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər və dirijorların qatıldığı IX Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində konsertlərdə iştirak edən xarici qonaqların Azərbaycanla daha yaxından tanış olduqlarını vurğulayıb. O əlavə edib ki, bu festival Azərbaycan mədəniyyətinin dünyada təbliği istiqamətində mühüm addımdır. Festival yerli və xarici kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. Deputat bu festivalın tezliklə Qarabağda, Şuşada keçirilməsini arzulayıb.



Festivalın bədii rəhbərlərindən biri, “Kiyev virtuozları” Orkestrinin musiqi rəhbəri, İsrailin Yerusəlim Simfonik Orkestrinin dirijoru, dünya şöhrətli violonçel ifaçısı Dmitri Yablonski çıxışında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya festival iştirakçıları adından təşəkkürünü bildirib. O diqqətə çatdırıb ki, Azərbaycan öz musiqi mədəniyyəti ilə hər zaman fərqlənir.

Heydər Əliyev Fondu ölkəmizin musiqi irsinin qorunub saxlanılması və təbliği yolunda bir sıra iri layihələr həyata keçirir. 2009-cu ildən ənənəvi olaraq hər il keçirilən bu musiqi festivalı ölkəmizdə və onun hüdudlarından kənarda böyük əks-səda doğurur.

Sonra Azərbaycan Dövlət Simfonik Orkestri Dünya şöhrətli italiyalı dirijor Roberto Molinellinin rəhbərliyi ilə tanınmış Litva musiqiçisi Nomeda Kazlausu (soprano), hazırda İtaliyada musiqi təhsili alan Azər Rzazadəni (tenor) və Məhərrəm Hüseynovu (baritone) müşayiət edib. Orkestr yüksək sənətkarlıq, fərdi ifa üslubu nümayiş etdirib və tamaşaçılara əvəzsiz təəssüratlar bəxş edib. Avropa səviyyəsinə uyğun ifa tərzi ilə seçilən Azərbaycan Dövlət Simfonik Orkestrin konsertində bəstəkar R. Vaqner, P. İ. Çaykovski, C.Verdi, V. A. Motsart, R. Molinelli, İ.Kalmanın əsərləri səsləndirilib. Festivalın sonuncu konserti mindən çox tamaşaçının iştirakı ilə keçib və gurultulu alqışlarla başa çatıb.

**”Qəbələ”**

**Fotolar İlkin Vəlizadənindir.**




***Vladimir Doroxin:***

“Səkkiz ildir ki, Azərbaycandayam. Ötən illər ərzində beş dəfə Qəbələ Beynəlxalq Musiqi Festivalını izləmişəm. İmkan daxilində belə möhtəşəm musiqi festivalını canlı izləməyə çalışıram”.

Bu sözləri Qəbələdə jurnalistlərə müsahibəsində Rusiyanın ölkəmizdəki səfiri Vladimir Doroxin deyib.

Rusiyalı diplomat Qəbələ IX Beynəlxalq Musiqi Festivalının çox yüksək səviyyədə təşkil edildiyini bildirib: “Musiqi festivalının yüksək səviyyəli bir tədbir olduğunu bilirəm. Burada dünyanın tanınmış musiqiçilərinin ifasını canlı dinləmək imkanım olub. Builki konsertlərdə də məşhur musiqiçilərin ifasından böyük zövq aldım.

Həmçinin Qəbələdəki bütün musiqi festivallarında rusiyalı bəstəkarların əsərləri səsləndirilib, bir neçə tanınmış orkestri, solisti, dirijoru çıxış edib. Bu da iki ölkə arasındakı mədəni və tarixi bağların dərinliyindən xəbər verir”.

* * *



***“FeMusa” orkestrinin rəhbəri:***

“İyirmi yeddi ildir ki, Londonda yaşayıram. “FeMusa” kamera orkestrini də 2008-ci ildə orada təşkil etmişəm. İlk dəfədir Qəbələdə təşkil olunan beynəlxalq musiqi festivalına dəvət almışam. Festival çox yüksək səviyyədə təşkil edilib”.

Bu sözləri “FeMusa” kamera orkestrinin yaradıcısı və bədii rəhbəri, Böyük Britaniyada yaşayan gənc azərbaycanlı musiqiçi, beynəlxalq müsabiqələr laureatı Nəzrin Rəşidova deyib.

O, rəhbərlik etdiyi kamera orkestrində 11 ölkədən gənc qızların təmsil olunduğunu və onların Qəbələ festivalında uğurla çıxış etdiyini bildirib: “FeMusa”nın musiqiçiləri burada bacarıqlarını nümayiş etdirdilər. Qəbələdə belə möhtəşəm tamaşaçı auditoriyası ilə qarşılaşacağımı, böyük diqqət görəcəyimi təsəvvür etmirdim. Festival yüksək səviyyədə təşkil olunub, buna görə də təşkilatçılara təşəkkür edirəm”.

* * *

***Janna Qandelmann:***

“Üçüncü dəfədir ki, Qəbələ Beynəlxalq Musiqi Festivalında iştirak edirəm. Bura çox xoşuma gəlir və gələcəkdə yenə gələcəyəm.

Bu sözləri Qəbələ IX Beynəlxalq Musiqi Festivalında çıxış edən İsrailin Yerusəlim



Simfonik Orkestrinin konsertmeysteri, Yerusəlim Musiqi Konservatoriyasının müəllimi, tanınmış violin ifaçısı Janna Qandelman deyib.

O, Qəbələ Beynəlxalq Musiqi festivalının yüksək səviyyədə təşkil olunduğunu bildirib: “Bu günlərdə Qəbələyə toplaşan dünyanın məşhur musiqi xadimləri təqdim etdikləri konsertlərlə böyük tamaşaçı auditoriyasına əsl musiqi bayramı yaşadırlar. Mən həmişə olduğu kimi, bu dəfə də Azərbaycandan xoş təəssüratlarla ayrılacağam”.

* * *

**Əməkdar artist, pianoçu İsfar Sarabski:**

“Düşünürəm ki, Qəbələdə, bu yaşıl meşəli dağlar arasındakı mənzərəli yerdə, təbiət qoynunda beynəlxalq musiqi festivalının keçirilməsi mükəmməl ideyadır. Burada olmağımdan şərəf hissi duyuram. Dinləyici auditoriyasında müxtəlif yaşda insanların olması çox gözəldir. Konsertdə həm gənc, həm də yaşlı nəslin nümayəndələri arasında klassik musiqiyə böyük ma-



raq olduğunu müşahidə etdim.

Qəbələ festivalı gənc musiqiçilərə istedadlarını nümayiş etdirmək üçün gözəl imkanlar yaradıb.

Festivalda gənclər dünyanın tanınmış musiqiçiləri ilə eyni səhnəni bölüşürlər.”